TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASI

12-Cİ İCLAS

Ankara (onlayn), 25 fevral 2025-ci il

TÖVSİYƏ QƏRARI

ENERJİ TƏHLÜKƏSİZLİYİ İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFININ AMİLİ KİMİ

Parlament Assambleyası:

TÜRKPA-nın üzv ölkələrinin iqtisadiyyatının dayanıqlı inkişafının amili kimi enerji təhlükəsizliyinin təmin edilməsi üçün mövcud imkanlardan istifadə edilməsi zərurətini ***anlayaraq***;

İnteqrasiya edilmiş Türk Enerji Bazarının yaradılması ilə TÜRKPA-nın üzv dövlətləri arasında enerji əməkdaşlığının institusionallaşdırılması üçün şərait yaradılmasının əhəmiyyətini ***vurğulayaraq***;

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusən "hər kəs üçün əlverişli, etibarlı, dayanıqlı və müasir enerjiyə çıxışı təmin etmək" – DİM 7-yə nail olunmasına sadiqliyimizi ***bir daha təsdiq edərək***;

Ticarət və iqtisadi inkişafı stimullaşdırmaq məqsədilə TÜRKPA-nın üzv ölkələri tərəfindən təsdiq edilmiş beynəlxalq müqavilələrdə müəyyən edilmiş TÜRKPA ərazisindən keçən tranzit marşrutları üçün əlverişli şərait yaradılmasının zəruriliyini ***qəbul edərək***;

TÜRKPA-nın üzv dövlətlərinin milli iqtisadiyyatlarının gücləndirilməsinə yönəlmiş bütün qarşılıqlı əməkdaşlıq fəaliyyətlərini ***alqışlayaraq***;

TÜRKPA regionunda birgə iqtisadi əməkdaşlığa töhfə vermək üçün hər hansı bir tərəfin təşəbbüsünü dəstəkləməyin əhəmiyyətini ***təsdiq edərək***;

Getdikcə mürəkkəbləşən geosiyasi və beynəlxalq enerji vəziyyətində TÜRKPA əməkdaşlığının qarşılıqlı faydalı ticarət mexanizmlərinin təkmilləşdirilməsinə yönəlməli olduğunu ***dərk edərək***;

Dayanıqlı artımın və iqtisadi inkişafın vacib elementi kimi ticarət və iqtisadi əməkdaşlığı stimullaşdırmaq məqsədilə tranzit potensialının artırılmasının zəruriliyini ***anlayaraq***;

Qanunvericiliyin qəbul edilməsi, büdcələrin təsdiq edilməsi və resursların səfərbər edilməsi ilə enerjinin hasilatı, emalı, nəqli və istehlakında, eləcə də enerji hasilatı və enerji istehlakı ilə əlaqədar milli iqtisadiyyatın bütün sektorlarında parlamentlərin və parlamentarilərin xüsusi rolunu ***nəzərə alaraq***,

TÜRKPA-nın üzv ölkələrinin parlamentlərinə **tövsiyə edir**:

a) TÜRKPA-nın üzv ölkələri arasında qanunvericiliyin sonrakı uyğunlaşdırılması və yaxınlaşdırılması ilə enerji təhlükəsizliyi ilə bağlı hüquqi çərçivənin *təkmilləşdirilməsi*;

b) birgə sərmayələr, bilik, təcrübə və nou-hau mübadilələri vasitəsilə TÜRKPA-nın üzv dövlətləri arasında enerji diversifikasiyası və təmiz/yaşıl enerji üçün, xüsusilə günəş, külək, nüvə, bioenerji kimi bərpa olunan enerji sahəsində əməkdaşlığın *təmin edilməsi*;

c) müvafiq sahədə TÜRKPA-nın üzv ölkələrinin qanunvericiliyini yaxınlaşdırmaq məqsədilə maraqlı tərəflər üçün enerji təhlükəsizliyinin və iqtisadi potensialın reallaşdırılmasına yönəlmiş investisiya proqramlarından səmərəli istifadə ilə bağlı qabaqcıl milli və beynəlxalq təcrübələrin *öyrənilməsi*;

d) TÜRKPA-nın üzv dövlətlərini təhlükəsiz, dayanıqlı, rəqabətli və əlverişli enerji ilə təmin etmək üçün siyasətlərin əlaqələndirilməsi, enerji ticarəti və investisiyaların təşviqi, enerji məhsulları istehsalının birləşdirilməsi, araşdırma və texnoloji əməkdaşlıq vasitəsilə TÜRKPA-nın üzv dövlətləri arasındaenerji sahəsində strateji tərəfdaşlığın *qurulması*;

e) TÜRKPA-nın üzv dövlətlərinin tələbatını *qarşılamaq*, onları alternativ marşrutlarla *təmin etmək*, habelə Avropanın və qlobal enerji təhlükəsizliyinə *töhfə vermək* məqsədilə regionda Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi və onun komponentləri olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru

Kəməri (TAP) kimi strateji enerji infrastruktur layihələrinin *inkişaf etdirilməsi*;

f) xüsusən enerji səmərəliliyi və enerjinin saxlanması ilə bağlı olan müasir enerji texnologiyalarının xərclərini azaltmaq və istifadəsini artırmaq məqsədilə tədqiqat və innovasiyanın həyata keçirilməsi üçün hökumətlər və özəl sektorlar arasında sıx əməkdaşlığın *təmin edilməsi* və neft-kimya məhsullarının birgə hasilatı və paylanmasının yaradılması;

g) Beynəlxalq Enerji Agentliyi (IEA), Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) və Enerji Xartiyası daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın *yaradılma*sı;

h) TÜRKPA-nın üzv dövlətləri arasında enerji əməkdaşlığının sırf təchizatçı-istehlakçı münasibətindən enerji diversifikasiyası və təmiz/yaşıl enerjiyə vurğu ilə enerji təhlükəsizliyi və səmərəliliyini dəstəkləyən daha texnologiya əsaslı əməkdaşlığa *keçirilməsi*;

i) ev təsərrüfatları, şəhər və kənd yerlərində yaşayan icmalar üçün əlverişli təmiz/yaşıl enerji daşıyıcılarına və son istifadə xidmətlərinə universal çıxışın *təmin edilməsi*;

j) aşağı karbon inkişafı sahəsində, xüsusən sənaye, kənd təsərrüfatı, energetika, nəqliyyat və bərpa olunan enerji mənbələrində geniş beynəlxalq mübadiləni və ən yaxşı texnologiyaların müxtəlifliyinin *inkişaf etdirilməsi*;

k) aşağı emissiyalı enerji şəbəkələrini sürətləndirən, çirklənməni azaldan və resurs səmərəliliyini optimallaşdıran yaşıl rəqəmsal həllərin tətbiqinin *dəstəklənməsi*;

l) Transxəzər Təbii Qaz Boru Kəməri layihəsində apstrim layihələri vasitəsilə çıxarılan neftin və təbii qazın beynəlxalq bazarlara nəqlinə imkan yaradan ortaq mövqenin *qəbul edilməsi*;

m) neft və qazın ötürücü-paylayıcı boru kəmərləri, anbar qurğuları və frontend mühəndis dizaynı, mühəndislik, texniki məsləhət, tikinti və istismar ilə bağlı digər infrastrukturda, habelə apstrim, midstrim və daunstrim layihələrinin, neft və qaz ticarətinin inkişafında əməkdaşlıq üçün imkanların *yaradılması*;

n) boru kəmərinin təhlükəsizliyi, Dispetçer Nəzarəti və Məlumatların Toplanmasında (SCADA) BOTAŞ Neft Boru Kəməri Korporasiyasının təcrübə və texnologiyasının ötürülməsi ilə başlayaraq boru kəmərinin idarə edilməsi və boru kəmərinin modernləşdirilməsi üzrə ekspert mübadilələri vasitəsilə bilik və texnologiyanın ötürülməsinin təmin edilməsi imkanının *araşdırılması*;

o) həm enerji hasilatçıları, həm də potensial istehlakçılarla əməkdaşlıq əlaqələrinin *genişləndirilməsi* və enerjiyə qənaət texnologiyalarına keçidin *təmin edilməsi*, habelə elektrik stansiyalarının tikintisi və modernləşdirilməsi vasitəsilə sənayenin gücünün *artırılması*;

p) yeni enerji güclərinin istismara verilməsinin azaldılması ilə yanaşı, həm də elektrik stansiyalarının köhnəlmiş avadanlıqlarının əvəz edilməsinə, ekoloji yükü azaltmağa və bərpa olunan enerji mənbələrinin ekoloji cəhətdən təmiz qurğularının inkişafı üçün maliyyə resurslarını azad etməyə imkan verən enerji səmərəli, yüksək qənaətcil avadanlıqdan *istifadə edilməsi*;

q) mövcud və yenidən qurulmuş qurğuların, texnologiyaların və avadanlıqların məhsullarının enerjiyə qənaət ekspertizasının *aparılması*; enerji səmərəli avadanlıqların və məhsulların tətbiqi layihələrinin həyata keçirilməsinin *təmin edilməsi*; enerji hasilatı və istehlakı rejimlərinin optimallaşdırılmasının, onun uçotunun və nəzarətinin təşkil edilməsinin *həyata keçirilməsi*; enerji resurslarına qənaəti təmin edən yeni tikinti məcəllələrinin və qaydalarının *tətbiq edilməsi*, mövcud olanların *təkmilləşdirilməsi*;

r) həm bərpa olunan enerji mənbələrinin, həm də təbii enerji resurslarının istifadəsini tənzimləyən mexanizm və alətlərin istehsalı və istifadəsini stimullaşdırmaq üçün bir sıra fiskal və inzibati tədbirlərin *görülməsi*, habelə əhalinin enerji səmərəli istehsaldan istifadə etməyə səy göstərməyə *həvəsləndirilməsi* və onların enerjiyə qənaət davranışında *maarifləndirilməsi*.